# DOSTLUQ - BABALARIN YADİGARI

*Yaxşı dost yaxşı dosta şərəfdir, iftixardır!*

**Əli TUDƏ**

*Hər kəsin böyüklüyü qəlbinin genişliyi və düşüncəsinin dərinliyi qədərdir.*

**Əli Rza XƏLƏFLİ**







Yazıma Əli Tudənin bu dəyərli misrası ilə başlamağım bir təsadüf deyil. Mən bu dəyərli şeiri hələ 5 yaşım olmamışdan öz dəsti-xəttimlə dəftərimə yazmışdım. Yəni mən dostluğa kiçik yaşlarımdan çox önəm verirəm. Bu yazımı isə mənə şərəf və iftixar olan, bu yaxınlarda 12 yaşını tamam etmiş, tərbiyəli və istedadlı dostum, qardaşım Alur Cəbrayılzadəyə həsr edirəm. Mən Aluru artıq neçə ildir ki, tanıyıram. Onun savadı, dünyagörüşü, paxıllıqdan uzaq təmiz qəlbi vardır. Dəfələrlə tədbirlərdə birgə iştirak etmişik. Mənim Milli Kitabxanada şeir kitablarımın təqdimatında da gözəl sözlər söyləmiş və məni sevindirmişdi. Yaşının az olmağına baxmayaraq, onda böyüklərə xas duruş, yüksək mədəniyyət və ətrafındakılara böyük hörmət etmək qabiliyyəti vardır. Bu da onun dəyərli ailədə göz açmağından və gözəl tərbiyə almağından irəli gəlir. Mən onun "Salam olsun!" adlı şeirini çox bəyənirəm.Təqdimatda bu şeirini söyləmiş və şeiri alqışlarla qarşılanmışdır. Bu yaxınlarda isə mənə hörmətindən irəli gələn "Alalıdır" (yəni fərqlidir) adlı 2 bənd şeir yazmışdı. Mən bu şeirdə dostum və qardaşım Alurun mənə olan gözəl münasibətinin şeirlə ifadəsini gördüm. Yaş fərqimizin az olmağına baxmayaraq bu gözəl sözləri dilinə gətirərək yazmış və məni qürurlandırmışdır. Mən buna ƏSL DOSTLUQ deyirəm. Yaşıdının uğuruna sevinən əsl dost!

Bu yaxınlarda isə mənim "QURANI OXUYANDA" adlı şeirimi oxuyub və məni bir daha sevindirmişdi. Alur bir övlad və bir nəvə kimi də çox dəyərlidir. O, əzizlərini çox sevir. Babasını isə hamıdan çox sevir. Mən də ailəmə və əzizlərimə bağlı bir övlad olduğum üçün onun bu keyfiyyətlərini yüksək qiymətləndirirəm. Mən babalarımın üzün görməsəm belə, bu gün də babalarımla fəxr edirəm. Bilirəm ki, Alur da babası, xalqımızın dəyərlisi Əli Rza Xələfli ilə qürur duyur. Bir sözlə, Alurla özümün ortaq xasiyyətlərimizin çox olduğunu düşünürəm. Mən 12 yaşını yenicə qeyd etmiş qardaşım Alura növbəti ad gününü doğma Qarabağımızda, Çəbrayılımızda keçirməyi ürəkdən arzu edirəm.

BİR DAHA YENİCƏ AD GÜNÜ OLMUŞ ALURU ÜRƏKDƏN TƏBRİK EDİRƏM!

ONA XOŞBƏXT BU GÜN VƏ GÖZƏL GƏLƏCƏK ARZU EDİRƏM!



Nəsiboğlu, Sevindik